*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 389-393*

https://doi.org/10.62837/2025.6.389

**UOT: 821.133.1**

**GÜLŞƏN MALİK QIZI BAĞIROVA**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0009-0002-9818-1067**
**gulsenbagirova0202@gmail.com**

# MÜQAVİMƏT RUHUNUN ƏDƏBİ İRSƏ TRANSFORMASİYASI: R.QARİNİN "SÜBHÜN VƏDİ" VƏ "ÇƏRPƏLƏNGLƏR" ROMANLARI ƏSASINDA

**XÜLASƏ**

XX əsrin geosiyasi sarsıntıları, xüsusilə İkinci Dünya müharibəsi bədii ədəbiyyatın məzmun və formalarına güclü təsir göstərmiş, tarixi travmaların estetik transformasiyasına zəmin yaratmışdır. Fransız müqavimət hərəkatının iştirakçısı olan Roman Qarinin "Sübhün vədi" və "Çərpələnglər" romanları yaddaş və müqavimət ideyalarının ədəbi diskursdakı təcəssümü baxımından diqqətəlayiq nümunələrdir. "Sübhün vədi"ndə ana obrazı fərdi mənəvi müqavimətin və fransız milli kimliyinin simvolu kimi təqdim olunur, uşaqlığın poetik təsvirləri isə müqavimət ideyasının formalaşmasının başlanğıc mərhələsini əks etdirir. "Çərpələnglər" romanında isə müqavimət konsepsiyası kollektiv yaddaş, azadlıq və mədəni dəyərlərin qorunması kontekstində çoxqatlı semantik çalarlarla işlənmişdir. Məqalədə Qarinin müqavimət mövzusuna fərqli estetik yanaşması, yaddaşın və təsəvvürün müqavimət aktı kimi təqdim olunması təhlil edilir.

**Açar sözlər:** Fransa müqavimət hərəkatı, poetik transformasiya, avtobioqrafiya, mədəni yaddaş, azadlıq

XX əsrin geosiyasi kataklizmləri, xüsusilə İkinci Dünya müharibəsi təkcə tarixi şüuru deyil, həmçinin ədəbiyyatın məzmun və forma istiqamətlərini də köklü surətdə dəyişmişdir. Müharibə dövründə və ondan sonrakı illərdə yaradılan bədii mətnlər sadəcə tarixi hadisələrin təsviri deyil, eyni zamanda kollektiv yaddaşın təşəkkül tapması, mənəvi müqavimətin dirçəldilməsi və əxlaqi dəyərlərin bədii diskursda müdafiəsi ilə seçilirdi. Fransız müqavimət hərəkatının iştirakçılarından olan Roman Qari əsərlərində fərdi və ictimai müqaviməti təsvir etməklə müqavimət ruhunun ədəbi irsə estetik-transformativ keçidini gerçəkləşdirmişdir. Onun "Sübhün vədi" və "Çərpələnglər" romanları bədii ədəbiyyatda yaddaş və müqavimət əlaqəsini təcəssüm etdirən parlaq nümunələrdir.

Avtobioqrafik üslubda qələmə alınan "Sübhün vədi" romanı mürəkkəb bədii struktura malikdir. Əsərin ideya-məzmun xəttində başlıca yer tutan ananın oğluna

bəslədiyi dərin inam və bu inamın fransız milli kimliyinə, eləcə də onun mənəvi dəyərlərinə istiqamətlənməsi müqavimət ideyasının ilkin mərhələsi kimi dəyərləndirilə bilər. Roman boyunca müəllifin anasının dilindən tez-tez səslənən *"sən Fransa üçün böyük bir şəxsiyyət olacaqsan", "Mənim oğlum Fransa səfiri olacaq. Sən qılıncla deyil, şərəfinlə vuruşacaqsan"* [3, s. 32] kimi ifadələr bir tərəfdən qəhrəmanın fransız kimliyinə və vətənə sədaqətinin, digər tərəfdən isə ana obrazının mənəvi müqavimətin simvoluna çevrilməsinin təcəssümüdür.

Ana obrazı əsərdə yalnız bioloji bir varlıq kimi deyil, həm də fransız millətinin təcəssümü, ideallaşdırılmış vətənin poetik metaforası kimi çıxış edir. Qari üçün anasının sevgisi Fransa ilə müqəddəs bir ittifaqın başlanğıcı idi, məhz bu sevgi, müharibədən əvvəl formalaşan müqavimət ruhunun təməlini təşkil edirdi. Tədqiqatçı R.Skulkraft isə Mina Ovçinska obrazını "müqavimətin emosional və simvolik planda ifadəsi" [7, s. 73]. kimi qiymətləndirərək qeyd edir ki, ana oğlunu qəhrəman obraz kimi deyil, mənəvi bütövlüyə sahib fərd kimi yetişdirməklə fransız müqavimətinin mədəni və etik əsaslarını formalaşdırır.

Əsərdə uşaqlığın poetik dili ilə təsvir edilən hadisələr fantaziyalarla çulğalaşaraq müqavimət ideyasının ilkin konturlarını təqdim edir. Bu təsvirlər uşaq təfəkküründə yaranan, lakin zaman keçdikcə yetkinlik çağında konkret siyasi və əxlaqi mübarizəyə çevriləcək müqavimət ruhunun başlanğıcı kimi dəyərləndirilə bilər. Qari bu məqamı belə ifadə edir: *"Hər səhər anam mənə Fransa bayrağı kimi sarılırdı. Mən bilirdim ki, onun qolları mənim qalxanımdır"* [3, s. 41]. Bu motiv müqavimət konsepsiyasını yalnız müharibə meydanı ilə məhdudlaşdırmır, onu gündəlik həyatın emosional və mənəvi kontekstinə daşıyaraq fərdin daxili dünyasında formalaşan mənəvi bir proses kimi təqdim edir.

"Sübhün vədi" romanında müqavimət ideyası həm fərdi psixoloji yetkinliyin simvolu, həm də kollektiv milli yaddaşın daşıyıcısı kimi çıxış edir. P.Rikörün yaddaş və identiklik anlayışına əsaslansaq deyə bilərik ki, Qarinin yaratdığı avtobioqrafik təhkiyə modeli fərdin mənəvi müqavimətinin millətin tarixi ilə çulğalaşdığını göstərir [5, s. 142]. Əsərdəki poetik obrazlar – ana qucağı, Fransa bayrağı, uşaq xəyalı – tarixi travma və ümidsizlik fonunda müqavimətin estetik-kreativ təzahürləridir. Bu, oxucuda müharibə mövzusunun yalnız zorakılıq və məhv etmə aktı deyil, həm də yaradıcı potensialın qaynağı kimi qavranılmasına şərait yaradır.

"Çərpələnglər" romanı isə çoxqatlı mədəni-tarixi kontekstlər üzərində qurulmuş, gerçəklik və romantik təxəyyülün müstəvisində təqdim olunan müxtəlif leymotivlər və intertekstual istinadların qarşılıqlı təsiri ilə formalaşmışdır. Əsərin məzmunu mimetik prinsiplərə deyil, ədəbi və tarixi reminissensiyalara əsaslanır. Romanda baş obraz Lüdo və müharibə dövrünün təsviri vasitəsilə müəllif müqavimətin müxtəlif təzahür formalarını araşdırır. Lüdonun əmisi Ambruaz Flerinin düzəltdiyi çərpələnglər simvolik olaraq azadlıq, fantaziya və müqavimət ideyalarını özündə birləşdirir. O, əsərdəki epizodlardan birində deyir: *"Almanlar göy*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 389-393*

*üzünə çərpələng buraxmağı yasaqladılar, amma mən bilirdim ki, azadlıq həmişə uçmağa davam edəcək"* [4, s. 144]. Bu səhnə müqavimətin təbiətini dərin şəkildə ifadə edir: çərpələng ucalığı, davamlılığı və görünməz mənəvi direnişi simvolizə edir.

Tədqiqatçı A.Erllin kollektiv yaddaş nəzəriyyəsinə istinad etdikdə məlum olur ki, Qarinin "Çərpələnglər" əsərində çərpələng obrazı sadəcə uşaq oyuncağı deyil, həm də yaddaşın "uçuş metaforası"dır [2, s. 59]. Əsərdə yaddaş və müqavimət anlayışları bir-birindən ayrılmır, əksinə mədəniyyətin və fərdi təcrübənin sintezində yeni mənalar doğurur. Bu baxımdan roman yalnız tarixi yaddaşı qorumağa yönəlmir, həm də azadlıq ideyasını gələcək nəsillərə ötürmək üçün poetik alətə çevrilir.

"Çərpələnglər" romanında müqavimət daha geniş ictimai və tarixi kontekstdə təsvir olunur, burada müqavimət kollektiv yaddaş və kimlik məsələsi kimi formalaşır. Lüdo obrazı vasitəsilə müəllif insanın və cəmiyyətin tarix qarşısındakı vəzifəsini, yaddaşın sağaldıcı və bərpaedici rolunu vurğulayır. Əsərin poetik simvolu çərpələng həm uşaqlıq xatirələrinin, azadlıq ümidlərinin, həm də müqavimət ideyasını təmsil edir. Romanın qəhrəmanları müxtəlif sosial təbəqələrdən olsalar da, azadlıq uğrunda vahid mövqedən çıxış edir və öz müqavimətlərini həm fiziki, həm mənəvi səviyyədə göstərirlər. *"Biz çərpələngləri göyə buraxanda, özümüzlə azadlığın xatirəsini göndərirdik"* [4, s. 112] ifadəsi əsərin əsas ideyasını ümumiləşdirir.

Fransız sosioloq J.Sapiro "Yazıçının məsuliyyəti" adlı kitabında yazır ki, "Roman Qari müqaviməti həm fiziki, həm də dilin və təsəvvürün fəaliyyəti kimi görür. Onun qəhrəmanları bəzən döyüşmür, amma danışır, təsəvvür edir və unutmur" [6, s. 109].

Roman boyu Lüdonun sevgisi və dözümü, xalqın passiv direnişi, yazılı və şifahi yaddaşın ötürülməsi, mədəniyyətin qorunması və azadlıq arzusu bir-birinə paralel şəkildə verilir. Romanın kulminasiyasında isə göstərilir ki, müqavimət təkcə silahla deyil, mənəviyyatla da mümkündür: *"Azadlığın özü yoxdur, onu biz yaşadırıq. Mən çərpələngimi göyə buraxdığım zaman hiss edirdim ki, əlimdə olmayan bir şey üçün vuruşuram"* [4, s. 179]. Bu fikir azadlığın konkret siyasi nəticə yox, daxili varlıq aktı olduğunu ifadə edərək müqavimətin emosional və fəlsəfi mənasını əsaslandırır.

"Sübhün vədi" və "Çərpələnglər" romanlarında müqavimət yalnız siyasi hadisələrin təsviri kimi deyil, mənəvi azadlığın və insan ləyaqətinin qorunmasının bədii simvolu kimi təqdim edilir. Yazıçının ədəbi dili və simvolizmi bu ideyanı poetik formaya çevirərək oxucuda həm emosional, həm də intellektual rezonans yaradır. "Sübhün vədi"ndə ana və oğul münasibətləri, "Çərpələnglər"də isə uşaq və böyüklərin dünyası arasında qurulan körpü, müqavimətin fərqli formalarda təqdimatını verir.

R.Qarinin yaradıcılığında müqavimət ruhunun transformasiyası həm də müəllifin iki ədəbi şəxsiyyəti ilə əlaqəlidir. Roman Qari və Emil Ajar imzaları altında

yazdığı əsərlər fərqli üslubi və tematik yanaşmalar nümayiş etdirsə də hər iki halda müqavimət anlayışı insanın daxili dünyasının qəlizliyini, azadlıq arzusunu və həyatın mənasını ifadə edir. Bu ikili ədəbi persona vasitəsilə müəllif müharibə mövzusuna yeni, çoxşaxəli və humanist yanaşma gətirir.

Tədqiqatçı D.Bellos yazır ki, "Roman Qarinin Emil Ajar təxəllüsü altında yaratdığı obrazlar bəzən uduzsalar da əsla təslim olmurlar. Onların müqaviməti məhz humanist, antiqəhrəman mənasında bədii transformasiyadır" [1, s. 218]. Bu isə bir daha sübut edir ki, R.Qarinin ədəbi irsində müqavimət klassik qəhrəmanlıq formulu ilə deyil, insani zəiflik və mənəvi dayanıqlılıq çərçivəsində təqdim olunur.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bellos, D. Romain Gary: A Tall Story. London: Harvill Secker. 2010, 518 p.
2. Erll A. Memory in Cultur. Palgrave Macmillan. 2011. 218 p.
3. Gary, R. La promesse de l'aube. Paris: Gallimard, 1980, 455p.
4. Gary R. Les Cerfs-volants. Paris, Gallimard, Folio. 1983. 384 p.
5. Ricoeur, P. Memory, History, Forgetting. Chicago: University of Chicago Press, 2004. 642 s., s. 142, URL: https://dl1.cuni.cz/pluginfile.php/738780/mod_ resource/content/2/ Ricoeur%20-%20Memory%2C%20History%2C%20Forgetting.pdf
6. Sapiro, G. (2008). La responsabilité de l'écrivain. Paris: Seuil. 748p.
7. Schoolcraft R. Romain Gary: The Man Who Sold His Shadow (Critical Authors and Issues). University of Pennsylvania Press. 2002, 224 p

**Gulshan Malik Baghirova**

## SUMMARY

## THE TRANSFORMATION OF THE SPIRIT OF RESISTANCE INTO A LITERARY HERITAGE: BASED ON R. GARY'S NOVELS "PROMISE AT DAWN" AND "THE KITES"

The geopolitical upheavals of the 20th century, especially World War II, had a profound impact on the content and forms of fiction, creating the basis for the aesthetic transformation of historical traumas. The novels "The Promise of Dawn" and "The Kites" by Romain Gary, a participant in the French Resistance movement, are striking examples of the embodiment of ideas of memory and resistance in literary discourse. In "The Promise of Dawn" the image of the mother is presented as a symbol of individual moral resistance and French national identity, and poetic descriptions of childhood reflect the initial stage of the formation of the idea of resistance. In the novel "The Kites" the concept of resistance develops with multi-layered semantic nuances in the context of collective memory, freedom and the

protection of cultural values. The article analyzes Gary's different aesthetic approach to the theme of resistance, the presentation of memory and imagination as an act of resistance.

**Key words:** French Resistance movement, poetic transformation, autobiography, cultural memory, freedom

**Гульшан Малик Багирова**

**РЕЗЮМЕ**

**ПРЕОБРАЗОВАНИЕ ДУХА СОПРОТИВЛЕНИЯ В ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ: НА ОСНОВЕ РОМАНОВ Р. ГАРИ «ОБЕЩАНИЕ НА РАССВЕТЕ» И «ВОЗДУШНЫЕ ЗМЕИ»**

Геополитические потрясения XX века, особенно Вторая мировая война, оказали сильное влияние на содержание и формы художественной литературы, создав основу для эстетического преображения исторических травм. Романы «Обещание рассвета» и «Воздушные змеи» Романа Гари, участника французского движения Сопротивления, являются яркими примерами воплощения идей памяти и сопротивления в литературном дискурсе. В «Обещании рассвета» образ матери представлен как символ индивидуального морального сопротивления и французской национальной идентичности, а поэтические описания детства отражают начальный этап формирования идеи сопротивления. В романе «Воздушные змеи» концепция сопротивления развивается с многослойными смысловыми оттенками в контексте коллективной памяти, свободы и защиты культурных ценностей. В статье анализируется иной эстетический подход Гари к теме сопротивления, представление памяти и воображения как акта сопротивления.

**Ключевые слова:** Французское движение Сопротивления, поэтическая трансформация, автобиография, культурная память, свобода

***Rəyçi: f.e.d., prof. Ə.M.Zeynalov***